BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 *Humanitar elmlər seriyası* 2013

**UOT 654.197**

# AZƏRBAYCAN NƏZƏRİ ƏDƏBİYYATINDA TELEVİZİYANIN İLKİN ÇAĞLARININ İNFORMASİYA PROQRAMLARINA ELMİ MÜNASİBƏT

**R.A.MİRZƏYEVA**
***Bakı Dövlət Universitetu***
***rəna.mirzəyeva@gmail.com***

*Məqalədə Azərbaycan televiziya məkanında informasiya proqramlarının inkişaf mərhələləri işlənilir. Bu problemlə bağlı elmi-nəzəri ədəbiyyat araşdırılır və tənqidi yanaşma üsulu ilə təhlil edilir. Azərbaycanda televiziyanın ilkin mərhələsində informasiya proqramlarının ideoloji təbliğatı xarakteri, bu xarakteri formalaşdıran ictimai–siyasi şərait barədə söhbət açılır, sovet televiziya sistemində Azərbaycan televiziyasının yeri müəyyən edilir. Bununla bağlı rus-sovet TV nəzəriyyəçilərinin əsərlərinə müraciət olunur. Əlbəttə, əsas diqqət xəbər proqramlarının informasiya siyasətini formalaşdıran faktorlara yönəlir.*

**Açar sözlər**: televiziya, informasiya proqramları, ictimai TV, televiziya tarixi, ideologiya, ictimai maraq, təbliğat

Televiziyanın bir texniki və informasiya vasitəsi kimi meydana gəlməsi və formalaşma prosesinin maraqlılıq, gerçəklik aspekti ona intensiv elmi münasibəti də şərtləndirmişdir. Bu mənada televiziyanın meydana gəlməsinin tarixindən başlamış, onun ayrı-ayrı yaradıcılıq faktlarınadək bütün tərəflərinə elmi baxış özünü göstərmiş və göstərməkdədir. Əlbəttə, bu sırada telenəzəriyyəçilərin informasiya proqramına diqqəti ayrıca maraq doğurur. Lakin bu nəzəri fikirlər informasiya proqramlarının evolyusiyasını həm də televiziyanın tarixi inkişaf mərhələləri ilə paralel götürdüklərinə görə biz də problemə yanaşmanın bu metoduna üstünlük verdik.

Televiziyanın yaranması və inkişaf tarixi ilə bağlı istər beynəlxalq məkanda, istərsə də ayrı-ayrı ölkələrdə maraqlı tədqiqat işləri aparılmışdır.

Bu barədə Türkiyə jurnalistika nəzəriyyəçilərindən Oya Tokgözün, Bülent Küçükerdoğanın, Metin İşıkın, Alemdar Korkmazın, Avçı Adnanın və digər bir çoxlarının, Rusiya teleradio tədqiqatçılarından Ə.Bağırovun, R.Bopetskinin, V.Svikin, Q.Vaçnadzenin, M.Rabiuerin və başqalarının, Azərbaycan teleradio nəzəriyyəçilərindən E.Quliyevin, F.Mehdinin, Q.Məhərrəmlinin, Y.Əlizadənin,

Z.Məmmədlinin və digərlərinin əsərləri bu sahədə maraqlı, fundamental nümunələrdir.

Xüsusi qeyd etməliyik ki, televiziyanın tarixinə dair elmi ədəbiyyatın böyük əksəriyyətində informasiya proqramlarının yaranması və fəaliyyət prinsipləri haqqında müəyyən araşdırmalar da öz əksini tapmışdır.

Tədqiqatçıların fikrincə, televiziyanın inkişaf və fəaliyyəti, eləcə də onun xəbər proqramlarına münasibəti ayrı-ayrı ölkələrdə müxtəlifliklərlə müşahidə olunmuşdur. Bu da xeyli dərəcədə ölkənin ictimai-siyasi həyatı, dövlət siyasəti ilə bağlı olmuşdur. Məsələn, 1934-cü ilin sonlarından başlayaraq dünyanın inkişaf etmiş ölkələrində televiziya artıq özünün ixtira, eksperiment mərhələsini başa vurub «laboratoriya şəraitindən çıxaraq gerçək fəaliyyət müstəvisinə keçdiyi» [7, 68] bir vaxtda -«1950-ci illərdə ABŞ tamaşaçıları onun əsas vəzifəsini və funksiyasını başqa ölkələrin əhalisindən daha tez duymağa başlamışlar» [7, 77] . ABŞ-ın o dövrdəki işlək adamları «gərgin iş günündən sonra öz zavodundan, fabrikindən, fermasından evə qayıdıb rahatlanır, televizorun düyməsini basaraq, efirdə onu tamam başqa aləmə-istirahət aləminə aparacaq proqramlar gözləyirdilər» [7, 77-78]. ABŞ telekanalları artıq 1950-ci illərin ikinci yarısında tamaşaçının ondan nə istədiyini yaxşı bilirdi və yaradıcılıq axtarışlarını bu istək üzərində qururdu. SSRİ televiziyasında və o cümlədən onun tərkib hissəsi olan və 1950-ci illərin ikinci yarısından efirə qədəm qoyan Azərbaycan televiziyası elə ilk fəaliyyət çağından bütün proqram setkasını ideoloji əsaslar üzərində kökləyirdi. ABŞ telekanalları prezident kürsüsü uğrunda mübarizədə Nikson və Kennedinin debatını təqdim etdiyi halda, SSRİ telekanalları hazır Baş katibləri qəflətən tamaşaçılarla tanış edirdi. Beləliklə, «1950-ci illərin ortalarından aydın oldu ki, ayrı-ayrı ölkələrdə televiziya müxtəlif statuslara malikdir və tamamilə fərqli prinsiplərlə fəaliyyət göstərir» [7, 81]. Həmin dövrlərdən başlayaraq ABŞ-da televiziyanın kommersiya, Avropada ictimai, SSRİ-də dövlət tipi şəklində formalaşma prosesi keçirdi.

Qeyd edək ki, televiziyada xəbər proqramları və ondan törəmə verilişlər bu informasiya vasitələrinin ilkin çağlarında da, elə indinin özündə də televiziyanın tipindən çox asılıdır. Məsələn, 1950-ci illərdən başlayaraq «Amerika televiziyasının kommersiya tipini tam qəbul edən ölkə kimi tanınır» [7, 84]. Təkcə SSRİ, yəni Kommunist ideologiyası ilə fəaliyyət göstərən bir ölkə deyil, habelə bir çox digər kapitalist ölkələri də ABŞ-da formalaşan kommersiya TV modelini tətbiq etməkdən çəkinmişlər. Belə ölkələr özəl-kommersiya kanallarının reklam bazarı uğrunda mübarizə fonunda maarifçilik, bilgiləndirmək funksiyasına az diqqət yetirəcəyindən narahat idilər. Reytinq uğrunda mübarizədə adi istehsal məmurları ilə TV proqramları arasında fərq görmək istəməyən kommersiya kanallarının əksinə olaraq ABŞ-da ictimai TV modelləri yaranmağa başladı. Belə bir model maarifçilik və informasiyalaşdırmaq –məlumatlandırmaq funksiyasını da yerinə yetirdiyinə görə Avropanın bir çox demokratik ölkələri, o cümlədən İngiltərə onu tətbiq etməyə başladı.

Bütün kommersiya və ictimai tipli telekanalların qarşısında dövlət televi-

ziya modeli də bir çox ölkələrin qəbul və inkişaf etdirdiyi bir informasiya vasitəsi kimi bu gün də öz fəaliyyətini davam etdirir. Mövcud nəzəri ədəbiyyat qeyd etdiyimiz modellərdə informasiya proqramlarının fəaliyyətini həm tarixən, həm də müasir dövrdəki fəaliyyət prinsiplərini araşdırmaq işində bəzi nəticələr əldə etmişlər. Həm də tədqiqatçılar bu məsələni təhlil edərkən haqqında bəhs etdikləri informasiya proqramlarının hansı TV modelində gerçəkləşdiyini nəzərə almışlar [13, 52]. Tədqiqatçılar da belə nəticəyə gəlirlər ki, hər bir telekanalın öz tipi olduğu kimi, fərqli informasiya siyasəti də mövcuddur ki, bu da xəbər proqramlarında özünü daha çox göstərir.

Ünlü teletədqiqatçı R.A.Boretski özünün «Televiziya tarixi haqqında söhbətlər» adlı kitabında göstərir ki, televiziya kanallarının xəbər proqramları hətta hər bir ölkənin siyasi rejiminə bağlı siyasətlə fəaliyyət göstərir. Bu mənada tədqiqatçı demokratik rejimlərə malik Avropa ölkələrinin telexəbər siyasətinin ABŞ və digər ölkələrin telexəbər prinsipləri ilə müqayisədə müəyyən fərqlərə malik olduğunu bildirir. Bu mənada sovet televiziyasının xüsusi tarixi fəaliyyət prinsipləri maraq doğurur. Bu televiziya birmənalı olaraq ideoloji xarakter daşımış, V.İ.Leninin hələ XX əsrin lap başlanğıcında formalaşdırdığı təbliğatçılıq təşviqatçılıq və təşkilatçılıq prinsiplərini rəhbər tutan bolşevik mətbuatı modeli çərçivəsində fəaliyyət göstərmişdir. Hətta, məsələn, sovet televiziyası sistemi 1956-cı il Macarıstan, 1968-ci il Çexoslovakiya qiyamları barədə ən adi informasiya belə təqdim etməyi lazım bilməmişdir*. SSRİ Mərkəzi Televiziyasında formalaşan və bütün sovet respublikalarının TV kanallarının informasiya siyasətini müəyyən edən «Vremya» xəbərlər proqramının əsas rubrikaları «Partiya və xalq birgədir», «Sosializm yarışının gedişi», «Sovet quruculuğu» və s. idi. 1960-cı illərin axırlarında Mərkəzi TV-də efirə çıxan «Son xəbərlər», «Televiziya xəbərləri» kimi törəmə xəbər proqramları respublikaların TV kanallarında da bu tipli xəbər proqramlarının meydana gəlməsinə şərait yaratdı. Televiziya tədqiqatçıları isə bütün bunları obyektiv təhlil etməkdən çəkinmiş, Qərb telekanalları qarşısında primitiv görünən sovet xəbərlər proqramları barədə danışanda da yalnız müsbət faktları qeyd etmişlər. Müasir dövrdə isə televiziyanın xəbərlər proqramları və onların tarixi barədə R.A.Boretskinin tədqiqatları çox mühüm elmi mənbə rolunu oynayır [8, 68].

Digər rus tədqiqatçılarının araşdırmalarında da TV xəbər proqramlarının tarixi fəaliyyəti haqqında maraqlı faktlar mövcuddur. Bununla bağlı V.L.Svikin «Televiziya jurnalistikası» [713, 53] kitabının adını çəkmək olar. Jurnalistika fakültəsinin tələbələrinə dərs vəsaiti kimi təqdim olunan bu kitabın «SSRİ-də televiziyanın vahid informasiya-təbliğat sisteminin formalaşması (1950-1970)» bölməsi ayrıca olaraq informasiya-xəbər proqramlarının tarixi fəaliyyət

* 1956-cı ildə Macarıstanda, 1958-ci ildə Çexoslovakiyada SSRİ-nin bu ölkələrdəki ekspansiya, antidemokratik fəaliyyəti əleyhinə nümayişlər olmuş və bu nümayişlər həmin ölkələrdə yerləşən sovet silahlı qüvvələri tərəfindən amansızlıqla yatırılmışdı.

prinsipləri barədə geniş məlumat verir. Doğrudur, müəllif 1956-1965-ci illər arasında ikiproqramlı yayıma keçidlə bağlı olaraq 1-ci teleproqramın SSRİ Məkəzi televiziyasına, 2-ci proqramın respublikalara aid olduğunu qeyd edir. Lakin 2-ci teleproqram yayımının yaranması ilə bağlı milli respublikalarda çoxproqramlı fəaliyyətə keçid mərhələsində xeyli şişirtməyə yol verir [13, 55-56]. Həqiqət isə budur ki, Ukrayna və Qazaxıstan istisna olmaqla, digər respublikalarda televiziyanın ikinci yayım proqramının meydana çıxması çox uzun çəkmişdir. Əlbəttə, artıq 1970-ci illərdə televiziyanın çoxkanallı sisteminin formalaşmasında bəzi irəliləyişlər vardı. 1970-ci illərdə informasiyanın, kütləvi informasiya vasitələrinin ideoloji prosesdə rolunu xüsusi diqqətə çəkən V.Q.Afanasyev göstərirdi ki, «kütləvi kanallarda informasiyanın təşkili işində yerli xəbərlərin (şəhər, rayon, kənd)» intensiv təqdimi, yerli mövzuların xəbərlərdə yer almasını diqqətdə saxlamaq lazımdır» [5, 386]. Alimlərin, filosofların bu tövsiyyələri «cəmiyyətin idarə olunmasına» xidmət etdiyinə görə hakimiyyət bəzən həmin tövsiyyələrə müsbət yanaşırdı.

Biz yenidən xəbər proqramlarının tarixinə dair araşdırmalara qayıtsaq, deyə bilərik ki, V.L.Svikin adını çəkdiyimiz kitabı yenidənqurma dövrünün və Rusiyanın müstəqillik illəri çağının TV xəbərlərinin xarakteri barədə xeyli məlumat təqdim etmişdir. İstedadlı rus televiziya tədqiqatçısı N.A.Qolyadkin rus və xarici ölkələrin televiziya tarixinə dair maraqlı tədqiqatlar aparmışdır. Onun «ABŞ televiziyasında informasiya» [9, 68] adlı tədqiqat əsərində Amerika Birləşmiş Ştatları teleməkanında informasiya proqramları təhlil edilir və eyni zamanda bu proqramların tarixi inkişaf prosesinə də nəzər salınır. Müəllifin «ABŞ televiziyası» [9, 86] kitabı da belə tarixi məlumatlarla zəngindir.

Həmin müəllifin «Vətən və xarici televiziya tarixi» [11] kitabında da televiziyanın ümumi inkişaf prosesi ilə bərabər, haqqında bəhs etdiyi ölkələrdə bu informasiya vasitələrində xəbər proqramlarının yaranma tarixinə dair də maraqlı məlumatlar var.

Bundan başqa müasir televiziya tədqiqatçılarının rus dilində bir sıra digər əsərlərində də informasiya proqramlarının tarixi formalaşma dövrü, fəaliyyət prinsipləri və s. barədə maraqlı faktlar meydana qoyulmuşdur [6; 12]. Azərbaycanda da televiziyanın yaranması və televiziyanın xəbər proqramlarının formalaşma tarixi barədə müəyyən qədər araşdırma aparılmışdır. Uzun müddət Azərbaycan televiziyasında rəhbər vəzifələrdə çalışmış Elşad Quliyevin, professor Yalçın Əlizadənin, professor Qulu Məhərrəmlinin, Elçin Əlibəylinin, Ənvər Qafarlının və digərlərinin televiziyaya dair müxtəlif tematikalı tədqiqatlarında milli televiziyada telexəbər proqramlarının formalaşma mərhələləri də araşdırılmışdır.

Yalçın Əlizadə və Qulu Məhərrəmlinin birgə yazdıqları «Azərbaycan efiri: tarix və müasirlik» əsəri bu mənada daha çox informasiya verir.

Əlbəttə, Y.Əlizadə və Q.Məhərrəmli ilk növbədə Azərbaycan televiziyasının bütövlükdə meydana gəlməsi və inkişaf mərhələlərinin tədqiqini araşdırmışlar. Lakin bu əsər habelə, televiziyada xəbər porqramları, onların audi-

toriyası, xarakteri, formatları və s. barədə də geniş təhlillər aparır. Azərbaycan televiziyasının ilk addımlarından başlayan ardıcıl tədqiqat müstəqillik dövrünün fəaliyyət istiqamətlərinədək bir çox mərhələləri özündə əks etdirir [2]. Əsərdə Azərbaycan televiziyasında hələ 1960-cı illərin əvvəllərindən efirə çıxan «Yeniliklər estafeti», «Günün ekranı», «Son xəbərlər» və s. informasiya proqramları barədə xeyli məlumat var. Həm də bu əsər TV tarixinə hər bir dövrün ictimai-siyasi mühiti kontekstində baxması ilə maraqlıdır.

Televiziyanın müxtəlif istiqamətləri üzrə tədqiqat aparan Elçin Əlibəylinin də əsərlərində telekanalların informasiya proqramlarının tarixi formalaşma prosesinin mərhələləri barədə məlumatlar var. Lakin xüsusi qeyd edək ki, tədqiqatçılar bəzən televiziyanın xəbərlər proqramının inkişaf mərhələlərində obyektiv tarixi şəraiti, televiziyanın tipoloji xarakterini, informasiya siyasətini nəzərə almadan tənqidi iradlar bildirirlər. Məsələn, E.Əlibəyli özünün hələ 2005-ci ildə nəşr etdirdiyi «Azərbaycan televiziyası» adlı əsərində Azərbaycan televiziyasının 1991-1994-cü illərdəki xəbər təcrübəsinin sonralar zəiflədiyi qənaətinə gələrək yazır: «Xəbərlər» proqramının başlamasından sonunadək qurulan estetik görünüş, musiqi seçimi, başlıq və arakəsmələr müasir yaradıcılıq axtarışlarından, yenilikçilikdən kifayət qədər primitivliyi ilə seçilir. Hazırda proqramların başlıqlarında əlvan rənglərdən ibarət kompüter qrafikası vasitəsilə yığılan dinamik, daha mürəkkəb forma və dizayndan istifadə olunduğu halda «xəbərlərin başlığı kifayət qədər solğun, tempsiz, köhlənmiş metodlarla yığılmış, heç bir estetik yük daşımayan kadrlar toplusudur» [1, 12]. Əlbəttə, bu sözlərdə bəzi həqiqətlər var, lakin burada tədqiqatçı əsas məsələlərdən birini-Az.TV-nin informasiya siyasətini nəzərə almır. Bu siyasət isə Az.TV-ni sakit tona, ənənəvi üsluba çağırır, çığır-bağırdan, sensasiyadan, həddindən artıq emosional dizayndan qaçmağı tələb edir.

Hər halda, E.Əlibəylinin tədqiqatları, xüsusilə 2011-ci ildə nəşr etdirdiyi «Televiziya nəzəriyyəsinin əsasları» əsəri bu kütləvi informasiya vasitələrinin fundamental prinsiplərini, o cümlədən xəbər proqramlarının həm tarixi, həm də müasir istiqamətlərini açmışdır.

Əvvəlcə televiziya informasiya proqramlarının əsas xüsusiyyətləri, onların cəmiyyət həyatında yeri barədə bəzi mülahizələr söyləyən müəllif ayrıca və konkret olaraq «Azərbaycan televiziyalarının informasiya proqramlarına tarixi nəzər» bölməsi ilə qeyd etdiyimiz problem ətrafında araşdırma aparmışdır. Bölümün elə ilk sətri problemin tarixi inkişaf mərhələsinə baxış məsələsinin vacib olduğunu bildirir. «Çağdaş Azərbaycan televiziyasında (teleməkan nəzərdə tutulur-R.M.) informasiya funksiyasının təcəssüm mənzərəsinə diqqət yetirmək üçün bu işin teleməkanda yaranma və inkişaf yoluna nəzər salmaq lazımdır» [1, 161]. Göründüyü kimi, bu sətir bizə hər şeydən əvvəl, tarixə baxış vəd edir. Və həqiqətən də tədqiqatçı bizə, bu tarixin – yəni telexəbər proqramlarının inkişaf tarixinin bir sıra faktlarını təqdim edir. Müəllif ilk növbədə Azərbaycanda televiziyanın bünövrəsini qoymuş Az.TV-nin, daha sonra ölkədə yeni yaranmış İctimai TV-nin, daha sonra özəl kanalların infor-

masiya proqramlarının tarixi barədə söhbət açır. Biz istər E.Əlibəylinin və digər tədqiqatçıların, istərsə də televiziyaya dair hər cür elmi məqalələrin məzmununda Az.TV-nin tarixən yaranmış «Günün ekranı» və sonralar adı dəyişdirilərək sadəcə «Xəbərlər» adlandırılan informasiya proqramlarının tarixi təcrübəsi barədə xeyli məlumat almışıq. Bu tədqiqatlar, əsasən, iki hissəyə ayrılır:

1. Azərbaycan televiziyasının ideoloji, təbliğati, dövlətçilik mahiyyətini anlayan və onun xəbər proqramlarına bu istiqamətdən yanaşanlar.

2. Azərbaycan televiziyasının tipoloji xarakterinə məhəl qoymadan onun xəbərlər proqramının həm tarixi, həm də müasir fəaliyyətinə maksimalist, hətta radikal, bir az da dərinə getsək, müxalif mövqedən baxanlar.

Əlbəttə, biz nə birincilərə nə də ikincilərə haqq qazandırırıq. Lakin nəzərə alanda ki, Az.TV bütün fəaliyyəti boyu peşəkarlıqdan daha çox ideoloji və təbliğati xəbərlərə üstünlük vermişdir, onda birincilərin daha obyektiv olmaları fikrinə gəlmək olar.

Televiziyalarda xəbərlər proqramlarına ikinci baxışın nümayəndəsi hesab etdiyimiz bir sıra nəzəriyyəçilər, o cümlədən Elçin Əlibəyli öz əsərlərində ANS TV-nin «Xəbərçi» proqramının ilk illərindəki formatından başqa heç bir xəbər proqramında peşəkarlıq elementləri tapmır. Lakin bu tapmamazlıqda onun bir nəzəriyyəçi kimi subyektiv baxışları var. Məsələn, İctimai televiziyanın «Carçı» xəbərlər proqramında «dəqiq konsepsiyanın olmaması, informasiya qanunlarının kobudluqla pozulması və müsahibə (yəqin ki, nəzəriyyəçi informasiya proqramlarındakı sinxronları nəzərdə tutur – R.M.) və ətrafında söhbətdən ibarət proqramdan o tərəfə gedə bilməməsi»ni [1, 173-174] xüsusi vurğulayır. Halbuki tədqiqatçı ictimai TV-dən, onun Azərbaycanda yaranmasından bəhs edərkən haqlı olaraq deyir: «Azərbaycanda İctimai Televiziya yaranan kimi onun ətrafında olduqca böyük müzakirələr və ziddiyyətli fikirlər söyləndi. Burada əsas diqqət sosial-ictimai əhəmiyyətliliyə və siyasi mövqeyə yönəlmişdi. Hər kəs xəyalında arzuladığı ictimai yayımı görmək istədiyi halda, əvəzində yayıma başlayan kanalı görüncə, bunu birmənalı qarşılamadı. Demokratik cəmiyyət üçün bu cür hallar, müzakirələr olduqca adi qəbul olunmalıdır. İlk növbədə onu da deyək ki, yeni yaranan qurum həmişə birmənalı münasibətlə qarşılanmır və İctimai televiziyadan birdən-birə bütün sahələri əhatə edə bilmək üçün bütün təbəqələrin, qurumların maraqlarına cavab vermək, hələ üstəlik keyfiyyətli yayıma yer vermək kimi mürəkkəb prosesi görmək sadəlövhlük olardı. Bütün fəaliyyət tədricən nizama salınmalı və inkişaf xətti ilə getməlidir» [1, 173-174]. Əlbəttə, nəzəriyyəçi məhz burada çox dəqiq mülahizələr irəli sürür. Lakin dərhal o özü də yeni yaranan televiziyanın xəbərlər proqramından maksimum nəticələr tələb edir. Bu yerdə də xatırlatmalıyıq ki, İctimai televiziya öz xarakterinə, funksiyasına və xüsusilə maarifçilik missiyasına görə reytinq ardınca qaça bilməz və bu da onun xəbərlər proqramının emosiyadan, hay-küydən, tədqiqatçının təqdir etdiyi özəl kanallardan fərqli olduğunu şərtləndirir.

Tədqiqatlarda özəl kommersiya telekanallarının xəbər proqramlarının tarixi inkişaf mərhələlərinə də xeyli diqqət yetirilmişdir.

Qeyd edək ki, Azərbaycanda özəl kanalların meydana gəlməsi ölkəmizin müstəqillik faktının məhsuludur. KİV-in özəl sektorunun yaradılması, «Televiziya və Radio Yayımları haqqında» Azərbaycan Respublikasının Qanunu telekanalların inkişafına təkan vermişdir. Türkiyə kimi inkişafda olan bir ölkə ilə Azərbaycanın təxminən eyni vaxtda özəl TV kanallarına şəraitin yaradılması tarixi bir faktdır. Əgər 1990-cı ildə Türkiyədə belə kanalların başlanğıcını Star TV qoydusa, 1991-ci ildə Azərbaycanda bu işi ANS TV gördü. «Türkiyədə 1990-cı ildən hələ xüsusi qanun olmadan yaranan özəl kanallar 1994-cü ildə qəbul olunan RTÜK qanunu ilə rəsmiləşdi» [4, 222]. Azərbaycanda da eyni proses baş verdi: 1991-ci ildə hələ TV qanunu olmadan meydana çıxmağa başlayan telekanallar 1998-ci ildə Milli Məclisin qəbul etdiyi qanunla rəsmiləşdi. Yeni yaranan telekanalların hamısı informasiya proqramlarının funksiyasına ciddi diqqət yetirirdi. Bu kanalların xəbər proqramlarının tarixi inkişaf yolu, yuxarıda qeyd etdiyimiz kimi, elmi araşdırmalarda mümkün qədər diqqətdə saxlanmışdır.

## ƏDƏBİYYAT


1. Əlibəyli E. Televiziya nəzəriyyəsinin əsasları. Bakı: Elm, 2011, 560 s.
2. Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, 387 s.
3. Quliyev E. Televiziya iki əsrin ayrıcında. Bakı: İşıq, 1993; Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı: Şərq-Qərb, 2004, 214 s.
4. Metin İşık. Dünya və Türkiye Bağlamında Kitle İletişim Sistemleri. Konya, 2007, s. 280
5. Афанасьев В.Г. Социальная информация и управления обществом. М.: Аспект-Пресс, 1975, 335с.
6. Андуранс Е.Ч. Информационная элита: Корпорации и рынок новостей. М.: МГУ, 1992, 212 с.
7. Борецкий Р.А. Беседы об истории телевидения. М.: ИКАР, 2011, 230 с.
8. Борецкий Р.А. Начало, или к истории телевидения. М.: ИКАР, 1996, 316 с.
9. Голядкин Н.А. ТВ информация в США. М.: МГУ, 1999, 246 с.
10. Голядкин Н.А. Телевидение США. М.: Аспект-Пресс, 1986, 187 с.
11. Голядкин Н.А. История отечественного и зарубежного телевидения. М.: Аспект-Пресс, 2011, 190 с.
12. Коменруд Р., Нельсон Р. Как преподносить новости. М.: Виоланта, 1998, 224 с.
13. Цвик В.Л. Телевизионная журналистика: История. Практика. М.: Аспект-Пресс, 2004, 382 с.


## НАУЧНОЕ ОТНОШЕНИЕ К ИНФОРМАЦИОННЫМ ПРОГРАММАМ ТЕЛЕВИДЕНИЯ РАННЕГО ПЕРИОДА В АЗЕРБАЙДЖАНСКОЙ ТЕОРЕТИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

**Р.А.МИРЗОЕВА**

## РЕЗЮМЕ

В статье исследуется история развития новостных программ азербайджанского телевидения, анализируется отношение теоретической литературы к информационным программам в ранний период становления телевидения. Информационная политика азербайджанского телевидения рассматривается здесь в контексте идеологических кана-

лов советского телевидения, которая являлась неотъемлемой частью советского телевидения. Именно поэтому значительное внимание уделяется научно-исследовательским работам российских теоретиков телевидения. Но, естественно, в первую очередь, интерес представляют научные воззрения об информационных программах и их анализе.

**Ключевые слова:** телевидение, информационные программы, общественное ТВ, история телевидение, идеология, общественное мнение, пропаганда

## SCIENTIFIC APPROACH TO INFORMATION PROGRAMS OF THE INITIAL PERIODS OF TELEVISION IN THE AZERBAIJANI THEORETICAL LITERATURE

**R.A.MIRZAYEVA**

### SUMMARY

The article studies the development history of TV news programs in the context of development history of television as a means of information. The attitude of television towards news programs of television in initial periods is analyzed. It is stated that information policy of the Azerbaijan television was formed within the ideological canons of the Soviet TV. It becomes clear that scientific-theoretical attitude to TV news programs is in the same context. The article underlines that the Azerbaijan television is analyzed as a part of USSR central television. Therefore, first of all, the scientific-research works of Russian theorists are particularly studied. Much attention is paid to the classification of theoretical opinions on news programs of Azerbaijan TV theorists and their analyses.

**Key words**; television, news programs, public TV, history of television, ideology, public opinion, promotion